**“Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il avqustun 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 oktyabr 2024-cü il
№ 212

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidməti (Rusiya Federasiyası),

Tərəflərin qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirmək istəyini ifadə edərək,

Tərəflərin gələcək əməkdaşlığının inkişafı üçün əlverişli şəraitin yaradılmasına çalışaraq,

bərabərhüquqluluq və qarşılıqlı fayda prinsiplərindən irəli gələrək,

qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi siyasətinin Tərəflərin dövlətlərinin səmərəli iqtisadi inkişafındakı mühüm rolunu vurğulayaraq,

Tərəflərin dövlətləri arasında qida məhsullarının təhlükəsizliyinin, keyfiyyətinin və sanitar-gigiyenik tələblərə uyğunluğunun təmin edilməsi sahəsində əlaqələrin inkişafının vacibliyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Sazişin məqsədi**

Bu Sazişin məqsədi Tərəflərin dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq və onların səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlığı genişləndirmək və möhkəmləndirməkdir.

Maddə 2
**Əməkdaşlıq istiqamətləri**

Qida məhsullarının təhlükəsizliyi sahəsində səmərəli əməkdaşlığı təmin etmək məqsədilə Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq aşağıdakı istiqamətlərdə əməkdaşlıq edirlər:

- Tərəflərin dövlətlərinin qida məhsullarının təhlükəsizliyi sahəsi üzrə milli qanunvericiliyi ilə bağlı məlumat mübadiləsi;
- risk əsaslı nəzarət və risklərin təhlili sistemlərinin tətbiqi sahəsində təcrübə mübadiləsi;
- qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi üzrə təcrübə mübadiləsi;
- qida məhsullarının Tərəflərin dövlətlərinin ərazisində qüvvədə olan sanitar-gigiyenik

tələblərə uyğunluğunu təsdiqləyən sənədlərin mövcud formaları barədə məlumat mübadiləsi;

- Tərəflər arasında operativ və davamlı mal dövriyyəsini təmin etmək məqsədilə Tərəflərin dövlətləri tərəfindən tətbiq edilən idxal tələblərindəki dəyişikliklər haqqında məlumat mübadiləsi;
- Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq qida məhsullarına sanitar-gigiyenik tələblərin pozulması ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər barədə əvvəlcədən məlumat mübadiləsi.

Maddə 3
**Əməkdaşlıq formaları**

Tərəflər arasında qarşılıqlı əlaqələrin əsas formaları bunlardır:

- qida məhsullarının təhlükəsizliyi üzrə işçi görüşlərin və məsləhətləşmələrin keçirilməsi;
- tədbirlərin, o cümlədən ikitərəfli və çoxtərəfli simpoziumların, konfransların və seminarların təşkili.

Maddə 4
**İşçi görüşlər**

Tərəflər bu Sazişin icrası çərçivəsində zərurət yarandıqda, lakin iki ildə bir dəfədən az olmamaqla Tərəflərdən birinin dövlətinin ərazisində, eləcə də rəqəmsal platformadan istifadə edərək onlayn formatda işçi görüşlər təşkil edirlər.

Maddə 5
**Məlumatlandırma**

Bir Tərəfin dövlətinin ərazisində digər Tərəfin dövlətinin ərazisində istehsal olunan emal olunmuş qida məhsullarının Tərəflərin dövlətlərinin sanitar-gigiyenik tələblərinə uyğun gəlməməsi halları müəyyən edildikdə, Tərəflər bu barədə dərhal bir-birinə məlumat verirlər.

Maddə 6
**Xərclər**

Tərəflər tərəfindən başqa cür razılaşdırılmadıqda, hər bir Tərəf öz nümayəndələrinin bu Sazişə uyğun olaraq keçirilən tədbirlərdə iştirakı ilə bağlı xərclərini (nəqliyyat, yaşayış və gündəlik xərclər) ödəyir.

Bu cür tədbirlərin keçirilməsi ilə bağlı təşkilati xərclər ev sahibi tərəf tərəfindən ödənilir.

Maddə 7
**Məlumatın qorunması**

Hər bir Tərəf dövlətinin qanunvericiliyinə uyğun olaraq bu Sazişin icrası çərçivəsində digər Tərəfdən alınan məlumatın, o cümlədən texniki məlumatın, məxfiliyini qoruyur və belə məlumatdan yalnız bu Sazişdə nəzərdə tutulmuş məqsədlər üçün istifadə edir.

Maddə 8
**Digər beynəlxalq müqavilələrə münasibət**

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 9
**Fikir ayrılıqlarının həlli**

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 10
**Əlavələr və düzəlişlər**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və/və ya düzəlişlər edilə bilər.

Maddə 11
**Yekun müddəalar**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişi diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, onun müddəti növbəti beşillik müddətlərə uzadılır.

Tərəflər arasında başqa cür razılaşdırılmadığı təqdirdə, bu Sazişin ləğv edilməsi ləğvetmədən əvvəl razılaşdırılmış tədbir və ya proqramların həyata keçirilməsinə təsir göstərmir.

Bakı şəhərində 2024-cü il 19 avqust tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır və hər iki mətn bərabər qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının**<br><br>**Qida Təhlükəsizliyi Agentliyi**<br>**adından**<br>*(imza)* | **İstehlakçıların Hüquqlarının Müdafiəsi və**<br>**İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası)**<br>**adından**<br>*(imza)* |